

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 235 (21.645)

9 dekabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Bakının Suraxanı rayonunda Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun 5 kilometrlik hissəsinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verib ki, avtomobil yolunun hərəkət hissəsinin eni 10 metrə qədərdir. Yol uzun müddət idi ki, təmir olunmurdu və intensiv hərəkət nəticəsində asfalt-beton örtük yararsız vəziyyətə düşmüşdü. Yola yeni asfalt-beton örtüyü salınıb. Asfalt-beton örtüyündə xüsusi materialdan istifadə olunub ki, bu da səth sularının asfalt-beton örtüyünə daxil olmasının qarşısını almaqla asfalt örtüyünün keyfiyyətini yaxşılaşdırır və uzunömürlülüyünü artırır. Layihə çərçivəsində yolboyu zəruri olan yerlərdə hər iki istiqamət üzrə piyadalar üçün yeni səkilər tikilib. Yol boyunca xüsusi avtobus dayanacaqları quraşdırılıb, səth və qrunt sularının ötürülməsi üçün zəruri olan yerlərdə drenaj borular qoyulub. Diqqətə çatdırılıb ki, əsaslı yenidənqurma işləri qrafikə uyğun texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb. Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun tikintisi ilə 3 yaşayış məntəqəsinin 63 min nəfər əhalisinin gediş-gəlişi xeyli rahatlaşıb.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

Sonda xatirə şəkli çəkdirilib.

## Hamiliyə verilmiş ixtisaslar üzrə təhsil alan tələbələr Ədliyyə Nazirliyinin bir sıra qurumlarının fəaliyyəti ilə tanış olublar

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 27 iyul 2015-ci il tarixli Sərəncamına uyğun olaraq dekabrın 7-də Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq, Dövlət və bələdiyyə idarəetməsi ixtisasları üzrə təhsil alan tələbələr Naxçıvan Şəhər Birinci Dövlət Notariat Kontorunda, Naxçıvan Şəhər Qeydiyyat Şöbəsində, Naxçıvan Şəhər İcra Bölməsində, Naxçıvan Bələdiyyəsində iş prosesi ilə tanış olublar.***



Naxçıvan Bələdiyyəsində Ümumi və Vergi şöbələrinin gündəlik iş prosesi ilə tanış olan Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələrinə Ümumi şöbəyə daxil olan sənədlərin qeydiyyatı, işlənməsi, rəsmiləşdirilməsi və göndərilməsi qaydaları, qeydiyyat jurnallarının işlənməsi, Vergi şöbəsində isə torpaq və əmlak vergisinin hesablanması qaydası, bildirişlərin yazılması, paylanılması proseduru, habelə vergi ödəyicilərinin qeydiyyatının aparılması barədə ətraflı məlumat verilib.

Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr həmin gün Naxçıvan Şəhər Birinci Dövlət Notariat Kontorunda, Naxçıvan Şəhər Qeydiyyat Şöbəsində, Naxçıvan Şəhər İcra Bölməsində olublar. Onlara notariat və qeydiyyat əməliyyatlarının aparılması – notariat orqanlarında əqdlərin və etibarnamələrin təsdiq edilməsi, vərəsəlik haqqında şəhadətnamənin verilməsi, sənədlərin surətlərinin və sənədlərdə çıxarışların düzgünlüyünün təsdiq edilməsi, qeydiyyat orqanlarında doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürülmənin, ölümün qeydiyyatının aparılması, məhkəmə qərarlarının icrasının təmin edilməsi barədə məlumat verilib. Bundan başqa, tələbələr məhkəmələrin mülki, inzibati və iqtisadi mübahisələrə dair inzibati xətalar haqqında işlər üzrə qərarlarının, cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların və qanunvericiliklə icrası icra məmurlarına həvalə olunmuş digər orqanların aktlarının icrasının həyata keçirilməsi haqda da məlumatlandırılıblar.

Dekabrın 8-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin imzaladığı sərəncamdan irəli gələn vəzifələr nazirlikdə müzakirə olunub, bununla bağlı nazirliyin və Naxçıvan Dövlət Universitetinin birgə tədbirlər planı təsdiq edilib. Universitetin müvafiq ixtisaslar üzrə tələbələri nazirlikdə və bələdiyyələrdə təcrübə kursları keçirlər.

Suliddin Əliyev deyib ki, bu təcrübələr gələcəkdə müxtəlif qurumlarda çalışacaq gənclərin səmərəli fəaliyyətinə müsbət təsir edəcək.

Nazirliyin bugünkü fəaliyyət istiqamətləri barədə də danışan Suliddin Əliyev vurğulayıb ki, hazırda nazirliyin strukturuna Penitensiar Xidmət, Məhkəmə Ekspertizası Mərkəzi, icra xidməti, notariat və qeydiyyat qurumları, Bələdiyyələrlə İş Mərkəzi və digər şöbə, bölmələr daxildir.

Diqqətə çatdırılıb ki, həmin qurumların bəzilərinin praktik işi ilə yaxından tanış olan tələbələrlə növbəti görüşlər nazirliyin digər xidmət sahələrində təşkil ediləcək, belə görüşlər onların bu sahə üzrə nəzəri biliklərinin praktik şəkildə mənimsənilməsinə imkan yaradacaq.

Ədliyyə Nazirliyinə daxil olan ayrı-ayrı qurumların fəaliyyəti ilə bağlı ətraflı məlumat verən Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, ədliyyə müşaviri Emin Səfərov qeyd edib ki, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi hüquq və bələdiyyə sahəsində də bilikli, həmçinin öz ixtisasına dərindən yiyələnən gənc kadrların hazırlanmasında mühüm rol oynayır.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

## Muxtar respublikada turizmin inkişafı: reallıqlar və perspektivlər

### *Bu mövzuda konfrans keçirilib*

***Naxçıvan Turizm İnformasiya Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən konfransda turizm firmalarının nümayəndələri ilə yanaşı, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin tələbələri də iştirak ediblər.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi aparatının rəhbəri Gülbuta Babayeva açaraq bildirib ki, ölkəmizdə turizm sahəsinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün Azərbaycan təbiətinin qorunması, dövlət əhəmiyyətli qoruqların yaradılması və mühafizə edilməsi, qədim maddi-mədəniyyət abidələrinin tədqiqi, onların bərpa edilib respublikamıza gələn turistlərə təqdim edilməsi sahəsində mühüm işlər həyata keçirilib. Bu böyük işlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, respublikamızın hər yerində ən müasir otellər və istirahət mərkəzləri tikilir, həm yay, həm də qış turizmi üçün yüksək şərait yaradılır, Azərbaycanın zəngin mədəniyyəti dünyaya tanıdılır.

Qeyd olunub ki, bu gün muxtar respublikamızda da turizm üçün hər cür imkan və şərait mövcuddur. Regionun ən ucqar dağ kəndlərinə belə, rahat yollar, qaz və su xətləri çəkilib, müasir infrastruktur obyektləri tikilib.

Bildirilib ki, bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı müşavirə keçirilib, aidiyyəti təşkilatlar qarşısında mühüm vəzifələr qoyulub. Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqların icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aid təşkilatlarla birgə tədbirlər planı təsdiq edilib.



Vurğulanıb ki, Naxçıvanın qədim tarixə və zəngin mədəniyyətə malik olması, yüksək qonaqpərvərlik ənənələri, zəngin təbiəti, özünəməxsus mətbəxi, regionun hər yerində, hətta ən ucqar dağ kəndlərində belə, müasir infrastrukturun yaradılması muxtar respublikada turizmin inkişafını sürətləndirib. Bu gün diyarımızın turizm potensialının təbliği istiqamətində ardıcıl iş aparılır. Naxçıvanın tarixi, mədəniyyəti, turizm marşrutları, mətbəxi, adət-ənənələri ilə bağlı onlarla adda reklam-informasiya materialları hazırlanıb, reklam çarxları və filmlər çəkilib.

Qeyd olunub ki, muxtar respublikada turizmin inkişafına göstərilən diqqət və qayğının nəticəsini faktlardan da görmək olar. 1995-ci ildə muxtar respublikaya 40000-ə yaxın turist gəlmişdisə, 2016-cı ilin ilk 10 ayı ərzində onların sayı 328213 nəfər olub. 2001-ci ildə muxtar respublikada 5 mehmanxana, 180-ə yaxın nömrə fondu, 317 yer var idisə, bu gün yerləşdirmə obyektlərinin sayı 21, nömrə fondu 600-ə yaxın, yer sayı 1400-dən çoxdur.

Diqqətə çatdırılıb ki, muxtar respublikamızda mövcud reallıqları əhəmiyyətli perspektivlərə çevirmək mümkündür. Bu məqsədlə keçirilən bugünkü konfrans gələcəkdə turizm rekreasiya imkanlarından istifadəyə öz müsbət təsirini göstərəcəkdir.

Sonra Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi aparatının rəhbəri Anar Cəfərov "Naxçıvan Muxtar Respublikasında turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda çıxış edib. Bildirib ki, qədim diyarımızda iqtisadiyyatın hərtərəfli inkişafı turizm sahəsinə müsbət təsirini göstərməkdədir. Süfrələrin bəzəyi olan "Badamlı" və "Sirab" mineral sularının istehsalı, yeyinti sənayesinin yüksək səviyyədə inkişaf etdirilməsi bu sahədə imkanlarımızın geniş olduğunu göstərir. Qədim diyarımızla bağlı müxtəlif suvenirlərin, hədiyyələrin hazırlanması da turizmin inkişafı istiqamətində atılan addımlardandır.

Səhiyyə Nazirliyi aparatının rəhbəri Nihad Seyidov "Muxtar respublikada səhiyyə turizminin inkişafı: reallıqlar və perspektivlər" mövzusundakı çıxışında bildirib ki, Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası müalicə turizminin inkişaf perspektivlərinin çoxşaxəli olduğunu göstərir.

Rabitə və Yeni Texnologiyalar Nazirliyi aparatının rəhbəri Əqil Həsənov "Muxtar respublikada turizmin inkişafında informasiya texnologiyalarının rolu" mövzusunda danışıb. Qeyd olunub ki, sosial şəbəkələrdə muxtar respublikanın tarix və mədəniyyət abidələri, turizm firmaları haqqında məlumatların yayılması və həmçinin internet resurslarından səmərəli istifadə vasitəsilə turizm potensialının təbliği müsbət nəticələr verməkdədir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Şövqi Əliyev "Naxçıvan Muxtar Respublikasının təbiəti və ekoturizm rekreasiya siyasəti" mövzusundakı çıxışında tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, muxtar respublikanın münbit torpaqları, saf su mənbələri, təmiz havası və zəngin dərman bitkiləri, bol Günəş – bütün bunlar ekoloji turizmin inkişafı üçün hərtərəfli imkanlar açır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

İcmal

# Ümummilli lider Heydər Əliyevin quruculuq, inkişaf siyasəti muxtar respublikada uğurla davam etdirilir

## Ötən ayın mənzərəsinə nəzər yetirdikdə bir daha bunun şahidi oluruq



***Sosial-iqtisadi baxımdan inkişaf edən, gündən-günə abadlaşan, gözəlləşən Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyevin siyasi xəttinin təntənəsinin əsaslı nümunələrindən biridir. Bu gün yüksək iqtisadi potensiala malik muxtar respublikada bütün dövlət proqramları, infrastruktur layihələri uğurla həyata keçirilir, irimiqyaslı quruculuq, abadlıq işləri aparılır. Müasir Naxçıvan dahi şəxsiyyətin dövlətçilik ideallarının işığında yaradıcı təfəkkürün real və möhtəşəm nəticələri əsasında ardıcıl olaraq davamlı şəkildə inkişaf edən bir diyar kimi şan-şöhrət qazanmaqdadır. Muxtar respublikada aqrar siyasət, sənayeləşmə uğurla reallaşdırılır, kəndlər abadlaşır, şəhərlər daha da inkişaf edir, əhalinin sosial problemləri həll olunur. Bu gün muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri Avrasiyanın inkişaf etmiş regional mərkəzləri ilə müqayisə olunur. Qədim diyarda yaradılan möhtəşəm infrastruktur nəinki Naxçıvan şəhərində, eyni zamanda muxtar respublikanın rayon mərkəzlərində beynəlxalq səviyyəli tədbirləri keçirməyə imkan verir.***

Bütün bunlar bir daha göstərir ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramı muxtar respublikada uğurla icra olunur. Bu çərçivədə Naxçıvan şəhərinə daxil olan kənd və qəsəbələrdə də kompleks infrastruktur quruculuğu tədbirləri həyata keçirilir. Aparılan quruculuq işləri sırasında içməli su və kanalizasiya şəbəkələrinin qurulması mühüm yer tutur. Bu il noyabrın 1-də Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində yeni içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib, Bulqanda kənd və xidmət mərkəzlərinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib.

Əvvəllər Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su problemi var idi. Sakinlər öz məhəllələrində su kranlarının quraşdırılacağını xəyal edirdilər. Lakin bu gün hər bir evə su və kanalizasiya xətti çəkilib, insanlar mənzillərində içməli su ilə təmin olunublar. Bu, sakinlərin rahat yaşayışı baxımından böyük əhəmiyyət kəsb edir. Çünki su həyatdır, təmizlikdir. Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi üzrə işlərin müasir şəhərsalma prinsipləri əsasında aparılması da məsələnin köklü həllinə imkan verib. Burada inzibati ərazi dairələri üzrə nümayəndəliklər üçün binaların, kənd mərkəzlərinin tikintisi yerli inzibati idarəçiliyin daha yaxşı təşkilinə, əhalinin qarşılaşdığı problemlərin operativ həllinə, inzibati orqanlarla əhali arasında ünsiyyətin mobilliyinə təkan verir.

Muxtar respublikanın davamlı inkişafı və təhlükəsizliyinin təmin edilməsi milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini zərurətə çevirib. Naxçıvanda bu istiqamətdə bir sıra institusional və təşkilati tədbirlər həyata keçirilməkdə, miqrasiya siyasətinin müasir dövrün tələblərinə uyğun formalaşdırılması istiqamətində əhəmiyyətli işlər görülməkdədir. Kompleks şəkildə görülən işlərin davamı olaraq noyabrın 8-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrantların Müvəqqəti Saxlanılması Mərkəzi istifadəyə verilib.

Ali Məclisin Sədri Miqrantların Müvəqqəti Saxlanılması Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək deyib: ***"Müasir dövrdə dünyada baş verən hadisələr miqrasiya sahəsində, o cümlədən miqrantlarla bağlı problemlərin yaranmasına səbəb olmuşdur. Hər gün dünyanın müxtəlif ölkələrində miqrasiya prosesləri və miqrantlarla bağlı problemlər müşahidə olunur. Bu səbəbdən də ölkəmizdə miqrasiya məsələləri diqqətdə saxlanılır, müvafiq tədbirlər həyata keçirilir. Miqrantların Müvəqqəti Saxlanılması Mərkəzinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır".***

Bəli, bu gün dünyanın bir çox ölkələrini narahat edən məsələlərdən biri də miqrant böhranıdır. Xarici müdaxilədən əziyyət çəkən, xüsusən Yaxın Şərqdən olan insanlar özlərinin, ailələrinin canlarını qurtarmaq üçün məcburi köçkün, qaçqın vəziyyətinə düşürlər. Onlar, sadəcə olaraq, həyatda qalmaq naminə bu əzablara qatlaşır, böyük təhlükələrlə üzləşərək əmin-amanlığın hökm sürdüyü müxtəlif ölkələrə üz tuturlar. Həmin insanların bu vəziyyətə düşməsi sabitliyin, əmin-amanlığın necə böyük bir nemət olduğunu bizə bir daha xatırladır, muxtar respublikamızda görülən bir sıra işlərin, atılan çox əhəmiyyətli addımların mahiyyətini anlamağa imkan verir.

Bu gün muxtar respublikada həyata keçirilən və insan amilini ön planda tutan sosialyönümlü siyasət cəmiyyətdə bu amilə diqqətin daha da artırılmasına, ayrı-ayrı sosial qrupların həyat şəraitinin yüksəldilməsinə etibarlı zəmin yaradan konseptual inkişaf nümunəsinə çevrilib. Bu siyasət insanların sağlam mühitdə yaşamaq, istirahət etmək, mənzil sahibi olmaq, təhsil almaq və digər hüquqlarının da etibarlı müdafiəsinə istiqamətlənib. Muxtar respublikanın bütün yaşayış məntəqələrində aparılan abadlıq işləri, müasir infrastrukturun qurulması, bu çərçivədə yolların bərpası, yaranmış tələbata uyğun olaraq yol şəbəkəsinin daha da genişləndirilməsi məhz bu məqsədlərə xidmət edir.

Noyabrın 11-də 31 min nəfərdən çox əhalinin yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə verilib.

Ali Məclisin Sədri yolun açılışını bildirən lenti kəsib, sakinləri təbrik edərək deyib: ***"Hər bir yaşayış məntəqəsinin inkişafında müasir yol infrastrukturunun yaradılması vacib məsələdir. Çünki harada yol abaddırsa, orada həyat rahatdır. Bu gün yaşayış məntəqələrində insanlar avtomobildən istifadə edir. Bunun üçünsə, ilk növbədə rahat yol olmalıdır. Bu amili nəzərə alan ölkə Prezidenti cənab İlham Əliyev 2014-cü il avqustun 27-də müvafiq Sərəncam imzaladı. Sərəncama əsasən Azərbaycanın ən böyük kəndlərindən biri olan Nehrəm kəndinin yolları yenidən quruldu. Yolun birinci hissəsinin açılışı 2015-ci il dekabrın 1-də həyata keçirildi. Bu gün isə yolun ikinci hissəsi istifadəyə verilir".***

Muxtar respublikada dini və milli dəyərlərimizin qorunması, yaşadılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Bu sahədə görülən işlərin davamı olaraq Nehrəm kəndində yeni məscid tikilib. Noyabrın 11-də Nehrəm kənd məscidi istifadəyə verilib.

Ali Məclisin Sədri tədbirdəki çıxışında çox əhəmiyyətli məqamlara toxunub: ***"Bu gün Azərbaycanda sabitlik və inkişaf vardır. Ölkəmizin hər bir yerində quruculuq işləri aparılır. Görülən işlərin, mövcud inkişafın və sabitliyin əsası isə ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu gün ümummilli liderin yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir, hər bir vətəndaşa ölkəmizin inkişafından pay düşür. Hazırda dünyanın bəzi ölkələrində müharibələr gedir, məscidlər və dini abidələr dağıdılır. Lakin bu gün Azərbaycanda sabitlikdir, bütün sahələr inkişaf etdirilir, məscidlər, yollar və digər sosial obyektlər istifadəyə verilir, dini-mənəvi dəyərlərimiz qorunub yaşadılır".***

Bu gün muxtar respublikamızın xarici ticarət əlaqələri genişlənir, qonşu ölkələrlə yanaşı, ticarət tərəfdaşı kimi çıxış edən ölkələrlə iqtisadi, mədəni münasibətlər inkişaf etdirilir.

Noyabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə, noyabrın 16-da isə Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua ilə görüşüb. Görüşlərdə dövlət başçıları tərəfindən münasibətlərin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışılıb, muxtar respublikanın inkişafının məmnunluq doğurduğu və ikitərəfli əlaqələr üçün geniş perspektivlər açdığı qeyd olunub. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında əlaqələrin inkişafı, həmçinin Çin Xalq Respublikası ilə rabitə və yeni texnologiyaların tətbiqi sahəsində görülən işlər yüksək qiymətləndirilib.

Qeyd etdiyimiz kimi, bu gün muxtar respublikamızda yaşayış məntəqələri müasirləşir, kəndlərdə şəhər infrastrukturu yaradılır, kompleks quruculuq işləri aparılır, yeni sosial obyektlər istifadəyə verilir, insanların rahat yaşayışı və məşğulluğu təmin edilir. Son illər Şərur rayonunda da həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan iqtisadi layihələr bölgəyə böyük yeniliklər gətirib, insanların həyat səviyyəsi xeyli yüksəlib. Rayon mərkəzi, kəndlər füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Bu sahədə görülən işlər rayonun Arbatan kəndini də əhatə edib. Noyabrın 15-də Şərur rayonunun Arbatan kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib. Bundan başqa, həmin gün kənd tam orta məktəbinin yeni binasının, kənd və xidmət mərkəzlərinin də açılışı olub.

Arbatan kəndində tikilənlər, qurulanlar muxtar respublikamızda insan amilinə verilən yüksək dəyərin növbəti nümunəsi, dövlət qayğısının daha bir ifadəsidir. Onu da deyək ki, kənd sakinləri, əsasən, əkinçilik və maldarlıqla məşğul olurlar. Sakinlər bərəkətli torpaqları əkir, bol məhsul istehsal edirlər. Məhsulun isə bazarı vardır. Göstərilən dövlət qayğısı təsərrüfatların ilbəil genişlənməsinə imkan yaradıb. Bütün bunlar kənd sakinlərinin rifahının yaxşılaşmasına, onların öz yurd-yuvalarına daha sıx bağlanmasına səbəb olub. Yaradılan şərait kənddə məskunlaşmanı artırıb. Bu il Arbatan kəndində 3 yeni fərdi ev tikilib. Daha 3 fərdi evin isə tikintisi davam etdirilir. Muxtar respublikada kəndlərdə yaradılan möhtəşəm infrastruktur, həmin yaşayış məntəqələrində həm də kənd turizminin inkişafı üçün çox geniş imkanlar açır. Çünki müasirlik və təbiilik özlüyündə bir cazibə mərkəzi yaradır. Bu gün Arbatan məhz belə kəndlərimizdəndir.

2018-ci ildə daha bir qürurverici hadisənin şahidi olacağıq. Belə ki, Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı statusunu təhvil alacaqdır. Milli mədəniyyətin aparıcılığı ilə və Şərq-Qərb mədəniyyətlərinin ənənələrinin sintezi əsasında yenidən qurulan, bəşər sivilizasiyasının beşiyi olan 5 minillik tarixə malik Naxçıvan şəhəri bu dəfə İslam mədəniyyətinin paytaxtı kimi dünyanın diqqət mərkəzində olacaqdır.

Bu məqamda qeyd etmək yerinə düşər ki, İslam mədəniyyətinin paytaxtı statusunu qazanmaq üçün müəyyən şərtlər var. Bu ada namizəd olan şəhərin region və öz ölkəsi səviyyəsində zəngin tarixi olmalı, o, elm, incəsənət və ədəbiyyatın inkişafına xüsusi töhfələr verməli, həm İslam, həm də bütövlükdə, dünya mədəniyyətində yeri olmalıdır. Eyni zamanda bu ada layiq şəhərdə elmi və mədəni infrastruktur – elmi mərkəzlər, mədəni-kütləvi tədbirləri təşkil edən təsisatlar, mükəmməl təhsil qurumları fəaliyyət göstərməlidir. Həmçinin şəhərdə qədimliklə müasirliyin birləşərək vəhdət təşkil etməsi də əsas şərtlər sırasındadır. Qədim yurdumuz Naxçıvan tələb edilən bütün qayda və şərtlərə cavab verdiyindən bu ulu diyar İslam mədəniyyətinin paytaxtı elan edilib.

Noyabrın 25-də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Noyabrın 26-da Naxçıvan Dövlət Musiqili Dram Teatrında yazıçı-dramaturq Elçin Əfəndiyevin "Arılar arasında" əsəri əsasında hazırlanmış eyniadlı tamaşaya baxış olub.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikası Baş nazirinin müavini, yazıçı-dramaturq Elçin Əfəndiyev səhnə arxasına keçərək yaradıcı heyətlə görüşüblər.

Ali Məclisin Sədri uğurlu tamaşa münasibətilə kollektivi təbrik edərək deyib: ***"Naxçıvan teatrında müxtəlif janrlarda əsərlər tamaşaya qoyulmuşdur. Teatrda fəlsəfi əsərlərə də müraciət olunmuşdur. Yazıçı-dramaturq Elçin Əfəndiyevin "Arılar arasında" pyesində müasir dövrdə cəmiyyəti narahat edən məsələlərə toxunulur. Nobel mükafatı laureatı, yazıçı Moris Metterlinq 1901-ci ildə yazdığı "Arıların həyatı" əsərində cəmiyyətin inkişafında arıların həyatından nümunə götürməyi ön plana çəkmişdir. "Arılar arasında" pyesində də arıların həyatından nümunə gətirilərək səhnələşdirilir və böyük tamaşaçı kütləsinə çatdırılır".***

Ali Məclisin Sədri uğurlu əsərə görə yazıçı-dramaturq Elçin Əfəndiyevə təşəkkür edib, kollektivə yaradıcılıq uğurları arzulayıb.

Bu gün muxtar respublikada ətraf mühitin mühafizəsi, insanların sağlam ekoloji mühitdə yaşaması və yaşıllıqların genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Hər il muxtar respublikada yüz hektarlarla yeni yaşıllıq zolaqları, meyvə bağları salınır. Bu tədbirlər ekoloji tarazlığı qorumaqla yanaşı, həm də meyvəçiliyin inkişafında mühüm əhəmiyyətə malikdir. Noyabrın 26-da muxtar respublikada növbəti iməcilik keçirilib, müxtəlif meyvə və üzüm tingləri əkilib, meyvə bağlarına aqrotexniki qulluq göstərilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iməcilikdə iştirak edib, gələcəkdə ərazidə üzüm əkininin davam etdirilməsi barədə tapşırıq verib.

Kadr potensialının gücləndirilməsi, elmin, təhsilin inkişaf etdirilməsi bu gün qarşıda duran əsas vəzifələrdən biridir. Çünki yüksək təhsil almış insanlar innovativ inkişafın fundamentini təşkil edirlər. Həmin insanlar əvvəlcə tam orta məktəblərdə təhsil alır, ilk bilikləri məhz burada yiyələnirlər. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda təhsilin inkişafı, intellektli və vətənpərvər gənclərin yetişdirilməsi diqqət mərkəzində saxlanılır. Təhsil quruculuğu tədbirləri bu il də davam etdirilir, muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində yeni məktəb binaları tikilir, mövcud məktəb binaları yenidən qurulur.

Noyabrın 28-də Kəngərli rayonunda akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin müasir tədrisin tələbləri səviyyəsində qurulduğunu bildirib, bu münasibətlə kollektivi təbrik edərək deyib: ***"Ölkənin inkişafını təhsil olmadan təsəvvür etmək mümkün deyil. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də ölkənin təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır". Ölkəmizdə ulu öndərin tövsiyələrinə əməl olunaraq müasir məktəb binaları tikilir. Bu gün istifadəyə verilən Şahtaxtı kənd tam orta məktəbinin binası da təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlərin davamıdır".***

*Ötən ayın ümumi mənzərəsinə nəzər yetirdikdə bir daha şahid oluruq ki, muxtar respublikada ulu öndər Heydər Əliyevin quruculuq, inkişafa, yüksəlişə əsaslanan siyasi xətti uğurla davam etdirilir. Bunu həyata keçirənlər isə böyük siyasətdə keçdiyi çətin və şərəfli yolu, sərt və mürəkkəb məqamlarda tutduğu obyektiv və qəti mövqeyi, atdığı düşünülmüş addımları, əldə etdiyi ciddi və mühüm nəticələri ilə böyük siyasi məktəbin əsasını qoyan ulu öndərin məhz həmin məktəbinin layiqli məzunlarıdırlar. Onların gördüyü bütün bu işlər daim böyük sevgi və hörmətlə anılacaqdır.*

**Rauf ƏLİYEV**

# İşçilərin əmək hüquqları qorunur

***Ən qiymətli sərvət olan insanların əmək hüquqlarının ciddi şəkildə qorunması ölkəmizdə prioritet vəzifəyə çevrilib. Bunu muxtar respublikamızın timsalında da görmək mümkündür. Cari ilin ötən dövrü ərzində müvafiq qurumlar tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər də belə deməyə əsas verir.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti cari ilin 11 ayında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə çalışıb. Xidmət tərəfindən tikinti və istehsal müəssisələri üçün təhlükəsiz əmək şəraitinin yaradılması, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin olunması və həmin vasitələrdən istifadə edilməsi, həmçinin işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun olaraq əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində görülən işlər davam etdirilib. İşçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində çalışanların əməyin mühafizəsi qaydalarına riayət etmələri ilə əlaqədar 69 müəssisə və tikinti sahəsində nəzarət həyata keçirilib, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 96 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb, 180 işçi isə həmin vasitələrlə yerində təmin olunub. Bu barədə qəzetimizə nazirlik tərəfindən məlumat verilib. Məlumatda bildirilir ki, qeyd olunan dövr ərzində işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının real göstərilməsinə nəzarət məqsədilə 424 sahibkarlıq obyektinə baxış keçirilib, 218 işçi ilə yeni əmək münasibətlərinin rəsmiləşdirilməsinə, 1066 halda isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunub.

İstehsalatda yüngül xəsarətalma ilə nəticələnən hadisələrin təkrarlanmaması məqsədilə işəgötürənlərə metodik köməklik göstərilib və istehsalatda baş verən 8 hadisənin müvafiq komissiya tərəfindən təhqiqatı aparılıb. Əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə inzibati xəta haqqında tərtib edilmiş protokola uyğun olaraq 5 vəzifəli şəxsə 4400 manat məbləğində cərimə tətbiq olunmasına dair qərar qəbul edilib.

Nəzarət zamanı "İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icbari sığorta müqaviləsi bağlanmadığı aşkar edilən 218 işçinin siyahısı müvafiq tədbirlər görülməsi üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə göndərilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə tikinti aparılacaq meydançalarda müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılmasına nəzarət məqsədilə, ümumilikdə, 33 tikinti sahəsinə baxış keçirilib və müvafiq akt tərtib olunaraq həmin tikinti sahələrində inşaat işlərinə başlanmasına razılıq verilib.

Kadr işləri və əməyin mühafizəsi üzrə mütəxəssislərin peşəkarlığını artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" və "İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi" mövzularında, ümumilikdə, 6 maarifləndirici kurs təşkil edilib.

Məlumatda o da qeyd olunur ki, son zamanlar iş yerlərində nəqliyyat vasitələri ilə yükdaşıma işlərində (nəqliyyat vasitəsinin geri hərəkəti, yükləmə və boşaltma əməliyyatları nəticəsində) işçilərin təcrübəsizliyi, səhv və ehtiyatsızlığı səbəbindən bədbəxt hadisələr baş verir. Bütün bunlar nəqliyyat vasitələrindən istifadə edərkən qəza hadisələrinin baş verməsinə səbəb ola biləcək amillərə və onların aradan qaldırılması məqsədilə həyata keçiriləcək təhlükəsizlik tədbirlərinə diqqəti artırıb. Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Nəqliyyat vasitələri üzrə yükləmə-boşaltma və yüklərin daşınması işləri zamanı əməyin mühafizəsi qaydalarına əməl olunması" mövzusunda ixtisasartırma kursu təşkil edilib.

28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə istehsalat xüsusiyyətləri nəzərə alınmaqla, 6 müəssisədə əməyin mühafizəsi üzrə bilik və peşəkarlığın artırılması məqsədilə maarifləndirici seminarlar təşkil olunub, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına dair maarifləndirici slaydlar hazırlanıb, seminar iştirakçılarına əməyin mühafizəsinə dair yaddaş kitabçaları təqdim edilib.

***Muxtar respublikada sahibkarlıq fəaliyyətinin genişlənməsinin, davamlı sosial-iqtisadi yüksəlişin, yeni istehsal, emal, ticarət, xidmət obyektlərinin yaradılmasının, aparılan tikinti-quruculuq işlərinin və yeni açılan iş yerlərinin nəticəsidir ki, əmək fəaliyyəti ilə məşğul olan vətəndaşların gələcəkdə etibarlı pensiya təminatını stimullaşdıran fərdi uçot sisteminin əhatə etdiyi şəxslərin sayı artmaqda davam edir.***

# Cari ilin 11 ayında muxtar respublikada 4190 nəfər sosial sığorta şəhadətnaməsi ilə təmin olunub

Bu istiqamətdə muxtar respublikada həyata keçirilən tədbirlər barədə qəzetimizə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Məlumatda bildirilir ki, fondda fərdi uçot sistemində cari ilin yanvar-noyabr aylarında ilk dəfə əmək fəaliyyətinə başlayan 4190 nəfər üçün fərdi şəxsi hesab açılıb. Özəl sektorun sürətli inkişafı üçün yaradılan əlverişli şəraitin nəticəsi olaraq 2016-cı ilin 11 ayı ərzində özəl sektor üzrə yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 1396 Q3 ərizə forması daxil olub. Həmin formalar müvafiq qaydada araşdırıldıqdan sonra sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün müvafiq orqana bu barədə sifarişlər verilib. Verilmiş sifarişlərə əsasən hazırlanan 1396 sosial sığorta şəhadətnaməsi sığortaedənlər vasitəsilə sığortaolunanlara çatdırılıb. Eyni zamanda idarə, müəssisə və təşkilatlardan 2073 nəfərə, fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə 433 nəfərə sosial sığorta şəhadətnaməsi təqdim olunub, habelə 288 nəfər mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçisi fondun fərdi uçot sistemində qeydiyyatdan keçərək sosial sığorta şəhadətnamələrini əldə etməklə, gələcəkdə əmək pensiyası hüququnun yaranmasına və məcburi dövlət sosial sığortası ödəmələrindən yararlanmaq hüququna malik olacaqlar.

Məlumatda o da bildirilir ki, 1 dekabr 2016-cı il tarixə fərdi uçot sistemində qeydiyyatda olanların sayı 163841 nəfərə çatıb. Onlardan 91426 nəfəri kişi, qalanları isə qadınlardır. Sığortaolunanların etibarlı pensiya təminatı üçün fərdi hesablarında pensiya kapitalı toplamalarına imkan yaradan bu sistemdə qeydiyyatda olanların 27580 nəfəri, yəni 17 faizi 30 yaşa qədər, 50161 nəfəri, yəni 31 faizi 30-40 yaşlarında olan şəxslərdir. Həmçinin sistemdə qeydiyyata alınanlar arasında 40-50 yaşlarında olanlar 40939 nəfər, yəni 25 faiz, 50-60 yaşlarında olanlar 39 860 nəfər, yəni 24 faiz təşkil edir. Qalanları isə 60 yaşdan yuxarı olan şəxslərdən ibarətdir.

Qeyd etmək lazımdır ki, muxtar respublikada istənilən sığortaolunan onun üçün sığortaedən tərəfindən ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə etmək və öz pensiya kapitalına, həm də işəgötürənin onun üçün əməkhaqqına uyğun sosial sığortahaqqı köçürdüyünə nəzarət etmək imkanına malikdir. Bunun üçün sığortaolunanlar Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalına *(www.e-hokumet.nmr.az)* və ya Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə *(www.dsmf.nakhchivan.az)* daxil olaraq elektron xidmətlərdən istifadə edə bilərlər.

**Xəbərlər şöbəsi**

*İstehsal müəssisələri*

# "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyəti məhsullarını "Made in Azerbaijan" brendi olaraq Naxçıvan məhsulları kimi xarici bazara çıxaracaq



– Əvvəllər rəng olaraq müxtəlif mebellər seçmək imkanı məhdud idi. Yəni istehlakçı 2-3 çeşiddə olan mebellər arasında seçim etmək məcburiyyətində qalırdı. Naxçıvan şəhərində "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması ilə bu problem aradan qaldırıldı. İstehsalçılar yeni çeşidlərdə mebel istehsal etmək, alıcılar isə zövqünə və evinin dizaynına uyğun mebellər seçmək imkanı qazandı.

– "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi materiallardan hazırlanan mebellər istər çeşidinə, istərsə də keyfiyyətinə görə alıcılar tərəfindən rəğbətlə qarşılanır.

– Yeni istehsal müəssisələrinin yaradılması daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin etməklə bərabər, yeni iş yerlərinin açılmasına da əlverişli şərait yaradır, əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır. "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması da bu amillərə xidmət edir.

– Mebel istehsalı ilə məşğul olan sahibkarlar əvvəllər mebel materiallarını xaricdən alıb, daşınma xərci çəkib, əlavə problemlərlə üzləşirdisə, "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması ilə bu çətinliklər aradan qaldırıldı. Məhsulların keyfiyyətinə və münasib qiymətinə də söz ola bilməz.

Ayrı-ayrı vaxtlarda və ayrı-ayrı ünvanlarda söhbət etdiyim mebel istehsalı ilə məşğul olan sahibkarların keyfiyyəti ilə seçilən və alıcı zövqünü oxşayan məhsullar istehsal edən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyəti haqqında dediyi xoş sözlər bu müəssisə ilə bağlı məqalə hazırlamaq üçün bir vəsilə oldu.

"Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ələddin Allahverdiyevin mobil telefonuna zəng vurub müəssisə ilə bağlı məlumat verməyi xahiş etdim.

– Türkiyədəyəm, Rusiyaya gedirəm. İki gün də Ukraynada olacağam. Həftəsonu Naxçıvana dönəcəyəm, görüşərik, – deyib xudahafizləşdi. Həftəsonu Ələddin müəllimlə müəssisədə görüşdük. Elə ilk sualım da belə oldu:

– *Necə istirahət etdiniz?*

Güldü:

– Sahibkarın istirahət etməyə maddi imkanı olsa da, vaxtı yoxdur. Bizim həm dövlət, həm də kollektiv qarşısında öhdəliyimiz var. Bu öhdəliyi yerinə yetirmək üçün ayrı-ayrı ölkələrdə biznes əlaqələri qurur, xarici bazarda etibarlı tərəfdaş tapmaq üçün səylər göstəririk. Əks təqdirdə, istər xammalın idxal olunmasında, istərsə də hazır məhsulların satışında problem yaranar. Satışı olmayan müəssisə isə, təbii ki, işçilərin əməkhaqqını və digər ödəmələri vaxtında apara bilməz. Nəticədə, müəssisə fəaliyyətini dayandırar.

– *Deməli, müəssisə qurmaq hələ işin başlanğıcıdır. Müəssisənin fəaliyyətini təmin etmək üçün sahibkarın daim çalışması tələb olunur.*

– Əlbəttə.

– *Eşitdiyimə görə xarici ölkələrdə, ölkəmizin paytaxtı Bakı şəhərində biznes fəaliyyəti ilə məşğul olmusunuz. Naxçıvanda böyük bir istehsal müəssisəsi qurmaq istəyi nədən qaynaqlanıb?*

– Əvvəla onu qeyd edim ki, mən naxçıvanlıyam. Naxçıvanda doğulub boya-başa çatmışam. Uzun illər xarici iş adamları ilə birlikdə biznes fəaliyyəti ilə məşğul olub, ölkəmizin paytaxtı Bakı şəhərində fəaliyyətimizi genişləndirdik. Necə deyərlər, böyük layihələr həyata keçirmək üçün maliyyə imkanlarımız və biznes əlaqələrimiz yarandı. Digər sahibkarlar kimi, biz də doğma Naxçıvanımızda yeni bir istehsal müəssisəsi qurmaq qərarına gəldik. Təklifimiz rəğbətlə qarşılandı. Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından biz də bəhrələndik. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün ayrılmış 15 min kvadratmetr ərazidə 3 istehsal sahəsi, ayrı-ayrı iş otaqları, sərgi-satış salonu olan inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verildi.

Atalar yaxşı deyib: "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır", – deyən Ələddin müəllimlə birlikdə müəssisəni gəzdik.

Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər və melamin örtüklü plitələr istehsal olunması nəzərdə tutulan müəssisədə artıq laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər istehsalı sahələrində İtaliyanın "Omma", İspaniyanın "Barbaren", Almaniyanın "İdm", Türkiyənin "AS Metal", "Türk makina" şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb.

Hər birinin aylıq istehsal gücü 20 min ədəd mebel materialları olan yeni istehsal sahələrində xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir.

Mebel istehsalı müəssisələrini yüksəkkeyfiyyətli materiallarla təmin edən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına artan tələbatın ödənilməsi üçün tədbirlər həyata keçirilir. Müəssisədə müasir tələblərə cavab verən ağac yonqarları lövhələrinin boyanması sahəsi və anbar binası istifadəyə verilib. Xammal və hazır məhsulların müəyyən olunmuş şəraitdə saxlanılmasına və istehsal müəssisələrinə vaxtında göndərilməsinə əlverişli şərait yaradılıb. Onu da qeyd edək ki, müəssisənin fasiləsiz fəaliyyət göstərməsində mühüm rol oynayan xammal və hazır məhsulların vaxtında daşınması da diqqət mərkəzində saxlanılıb, "DAF" markalı yük avtomobilləri alınıb.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, müəssisədə çalışan işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunub. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Gələcəkdə müəssisədə yeni istehsal sahəsinin – melamin örtüklü plitələr istehsalı sahəsinin istifadəyə verilməsi nəzərdə tutulur ki, bunun üçün də mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, dünyada məşhur olan Almaniyanın "Wemhoner" şirkətinin avadanlıqları alınıb gətiriləcək və idxal olunan dəzgahlar həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Melamin örtüklü plitələr istehsalı sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra, ümumilikdə, 110 nəfər daimi işlə təmin ediləcək.

Mebel materialları istehsal edilən bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsulların tələbata uyğun olaraq 20 faizi muxtar respublikamızda, 80 faizi isə ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda satışa çıxarılır. "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-9001 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Keyfiyyəti ilə seçilən məhsullar nəinki ölkəmizdə, hətta xarici ölkələrdə istehsal edilən eyniadlı məhsullarla rəqabət aparmaq imkanına və gücünə malikdir. Elə bu səbəbdəndir ki, hazırda istehsal edilən mebel materiallarının xarici ölkələrdə tanıdılması ilə bağlı tədbirlər görülür. Bu məhsulların satışı sahəsində qabaqcıl təcrübəyə malik şirkətlərlə biznes əlaqələri qurulur ki, bu da Naxçıvan məhsullarının xarici bazarlara ixrac olunmasına imkan verəcək. Ayrı-ayrı şirkətlərlə bağlanmış müqaviləyə uyğun olaraq "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən mebel materialları yaxın vaxtlarda "Made in Azerbaijan" brendi olaraq Naxçıvan məhsulu kimi xarici bazara çıxarılacaq.

**Kərəm HƏSƏNOV**

Yeni nəşrlər

## 50 sual 50 cavab

***Muxtar respublikada elmin inkişafına göstərilən diqqət və qayğı sanballı tədqiqatların aparılmasına, müxtəlif sahələri əhatə edən yeni kitabların ərsəyə gəlməsinə geniş imkanlar yaradıb. Bu prosesdə muxtar respublikanın səhiyyə işçiləri də fəallıq göstərir, elmi araşdırmalar aparır və təcrübi biliklərini ümumiləşdirərək kitab halında nəşr etdirirlər.***




Həkim-pediatr, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi, Azərbaycan Respublikasının Əməkdar həkimi Rəhim Rəhimovun bu yaxınlarda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə çap olunmuş "50 sual 50 cavab" adlı kitabı da bu qəbildəndir.

Kitab xəstəxananın tibbi heyətinin praktik fəaliyyətinə uyğun, gündəlik müşahidələri, valideynlər tərəfindən onlara ünvanlanan suallara cavab əsasında tərtib edilib. Səhiyyə maarifi xarakteri daşıyan kitabda həkiməqədərki mərhələdə valideynlərin bilməli olduqları müalicə üsulları öz əksini tapıb. Qeyd olunub ki, hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Uşağı sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyütmək çətin və məsuliyyətli, mənəvi qüvvə tələb edən bir işdir. Planetimizin əhalisinin üçdə birini təşkil edən uşaqlarımızın necə tərbiyə olunmasından, hansı ideyalara qulluq etməsindən hər bir ölkənin gələcəyi asılıdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Elmi-Tibbi Şurasının 19 sentyabr 2016-cı il tarixli qərarı ilə çap olunmuş kitab hər bir valideyn üçün faydalı məlumat qaynağıdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Babək Rayon Xalq Teatrının yeni tamaşasına baxış olub



***Babək Rayon Xalq Teatrı 2009-cu ildə yaradılsa da, muxtar respublikanın tanınmış teatr kollektivlərindən biridir. Teatrın müxtəlif illərdə hazırladığı tamaşalar ictimaiyyət tərəfindən maraqla qarşılanıb. "Ezop", "Yollara iz düşür", "İkinci səs", "Şeyx Rəhmətullah", "Ana", "Məhəbbət nişanəsi", "Solğun çiçəklər", "Durna", "Yağışdan çıxdıq yağmura düşdük", "Xəcalət" və başqa tamaşalar öz uğurlu səhnə həllini tapıb.***

Dekabrın 7-də Babək Rayon Xalq Teatrının yeni hazırladığı görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin "Unuda bilmirəm" tamaşasının premyerası olub.

"Unuda bilmirəm" pyesi uzun illər bundan əvvəl qələmə alınsa da, öz aktuallığını bu gün də saxlayır. Belə ki, cəmiyyət və gəncliyi düşündürən məsələlər, insanları narahat edən mənəvi-əxlaqi problemlər tamaşanın əsas mövzusudur.

Səhnə əsərində hadisələr professor Möhsünzadənin (İsmayıl Qurbanov) ailəsi ətrafında cərəyan etsə də, daha çox ictimai məsələlər, əxlaqi-mənəvi problemlər, gənclərin həyata ziddiyyətli baxışları ön plana çəkilir. Elə professor Möhsünzadə ilə ömür yoldaşı Səadət (Stella Babayeva) arasında olan düşüncə müxtəlifliyi, həyata baxış tamaşada xarakterik insan obrazlarının psixoloji dünyasını ortaya qoyur.

Tamaşanın əsas personajlarından olan Kamran (Məmməd Mehdiyev) gənc hüquqşünas kimi doğulduğu Borçalıya qayıdıb orada işləmək istəyir. Həyatda heç kəsin qanadları altında yaşamaq və kiminsə hesabına vəzifə qazanmaq istəməyən gənc hüquqşünas professorun qızı Nərmini (Səbinə Corayeva) sevir. Professorun arvadı Səadətin meşşan təbiəti, eləcə də Nərminin qətiyyətsizliyi onların ailə qurmasına imkan vermir. Ana və qız Kamranın Bakıda qalıb işləməsini istəsələr də, gənc hüquqşünas öz yurduna qayıdır. Kamranın rəqibi isə professorun tələbəsi Cəmil (Ələkbər İsmayılov) ondan fərqli olaraq şöhrət dalınca qaçan, təkəbbürlü, mənəvi kasıblığı ilə seçilən obrazdır. Bu uğursuz məhəbbətdən istifadə edən Cəmil Nərminlə ailə qurmaq istəyir. Tamaşada bir-birindən fərqlənən insan surətləri gərgin və maraqlı situasiyaların yaranmasına səbəb olur. Səhnə əsərinin sonunda istirahət üçün Borçalıya gedən professor Möhsünzadənin ailəsinin düşdüyü vəziyyət tamaşanın dramatizmini daha da artırır. Möhsünzadə və onun sürücüsü Kərəm (Elsevər Məmmədov) mənəvi cəhətdən saf olsalar da, Səadət və Cəmil mənəvi düşkünlükləri ilə əks-qütbdə dayanırlar. Tamaşadakı maraqlı dialoqlar, lirik-dramatik vəziyyətlər insan xarakterlərinin açılmasına xidmət etməklə yadda qalır.

"Unuda bilmirəm" tamaşasının quruluşçu rejissoru Yusif Əliyev, tərtibatçı rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərov, musiqi tərtibatçısı Cabir Məmmədovdur.

Tamaşadan sonra aktyorlarla görüşən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova, Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov uğurlu tamaşa münasibətilə kollektivi təbrik ediblər və yaradıcılıq uğurları arzulayıblar.

**Əli RZAYEV**

## Xalq artisti universitetdə ustad dərsi keçib

***Tanınmış rejissor, Azərbaycan Respublikasının Xalq artisti Vaqif Əsədov Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin Aktyor sənəti ixtisasının tələbələri üçün ustad dərsi keçib.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçilən dərsdən əvvəl nazirliyin əməkdaşı, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev tanınmış sənətkar haqqında tələbələrə məlumat verib. Qeyd olunub ki, 20 ilə yaxın Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor, rejissor kimi fəaliyyət göstərən Vaqif Əsədov burada P.Messianinin "Sükut divarı", Sofoklun "Elektra", Y.Onilin "Qarağaclar altında məhəbbət", H.Cavid adına Naxçıvan Poeziya Teatrında isə "Azər", "Mənim tanrım gözəllikdir, sevgidir", "Yenə o bağ olaydı" əsərlərinə quruluş verib. Vaqif Əsədov özünəməxsus sənət dəst-xətti ilə böyük aktyor nəslinin yetişməsinə də töhfəsini verib. Bildirilib ki, hazırda Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor kimi fəaliyyət göstərən Vaqif Əsədovun teatr sənətinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilib. O, 1978-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 2006-cı ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülüb, "Şərəf nişanı" ordeni ilə təltif edilib.

Xalq artisti Vaqif Əsədov "Teatrda aktyor-rejissor münasibətləri" mövzusunda keçdiyi dərsdə milli teatr sənətinin inkişaf tarixindən, qocaman Naxçıvan teatr məktəbinin Azərbaycan teatrının təşəkkülündəki rolundan danışıb. Tanınmış sənətkar incəsənətin müxtəlif sahələrini özündə birləşdirən teatr sənətinin insanların əxlaqi-mənəvi tərbiyəsində, onlarda bədii-estetik zövqün formalaşmasındakı müstəsna əhəmiyyətindən, görkəmli rejissor və teatrşünaslarımızın yaradıcılığından ətraflı bəhs edib. Vaqif Əsədov uğurlu tamaşa üçün 3 əsas komponentin – müəllif, rejissor və aktyor peşəkarlığının olmasını, əsl teatrın rejissor və aktyor truppasının komanda şəklində çalışması nəticəsində yarandığını, tamaşaçıya sənət zövqü bəxş etdiyini vurğulayıb. Öz təcrübəsini tələbələrlə bölüşən Vaqif Əsədov onların aktyor ampluası, tamaşaların janr müxtəlifliyi, dram əsərlərinin uğurlu səhnə təcəssümü üçün vacib amillər, müasir dramaturgiyamızın mövzu və ideya istiqamətləri ilə bağlı sualları cavablandırıb.

Universitetin Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülxanım Əhmədova ustad dərsi üçün tanınmış teatr xadiminə, tədbirin təşkilatçısı olan Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinə minnətdarlığını bildirib.

**Mehriban SULTAN**

***Kəngərli Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə rayonun Yurdçu kənd tam orta məktəbində ümumtəhsil məktəblərinin qız voleybolçuları arasında birincilik təşkil edilib.***

## Voleybol və şahmat yarışlarına yekun vurulub

Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüsal Hüseynov və Uşaq-gənclər idman məktəbinin direktoru Sarvan Məmmədov çıxış edərək ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına göstərilən qayğıdan danışıblar. Qeyd olunub ki, bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında idmanın kütləviliyinin təmin olunması, müasir idman komplekslərinin istifadəyə verilməsi, respublika və beynəlxalq səviyyəli yarışlarda idmançılarımızın iştirakının təmin edilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə müəyyənləşdirdiyi siyasətin uğurla davam etdirilməsinin nəticəsidir.

8 komandanın iştirak etdiyi yarışda 90-dan çox idmançı mübarizə aparıb. Olimpiya sistemi üzrə keçirilən yarışın nəticəsinə əsasən, akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin komandası qalib olub. Digər iki pillədə isə Çalxanqala və Qarabağlar kənd tam orta məktəblərinin komandaları qərarlaşıblar.

* * *

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Uşaq-gənclər şahmat məktəbinin təşkilatçılığı ilə rayon məktəbliləri arasında keçirilən şahmat turniri başa çatıb. Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev və Uşaq-gənclər şahmat məktəbinin direktoru Elman Əliyev yarışdan əvvəl çıxış edərək bildiriblər ki, bu gün bədən tərbiyəsi və idmanın inkişafına göstərilən qayğının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Belə qayğı idmançılarımızın müxtəlif yarışlarda yüksək qələbələr qazanmalarına stimul olub.

Olimpiya sistemi üzrə keçirilən turnirdə 30-a yaxın oğlan və qız qüvvəsini sınayıb. Yekun nəticəyə əsasən, turnirdə müvafiq olaraq oğlanlar arasında Asif Dünyamalıyev, Hüseyn Yerdələn və Murad Rzazadə mükafat qazanıblar. Qızların mübarizəsində isə Dilbər Dünyamalıyeva, Nurşən Məmişova və Nurtac Salahlı ilk üç pillədə qərarlaşıblar.

Qalib komandalar təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin noyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 649984 | 64998 | 65313 | 100,5 |
| 2. | Ordubad rayonu | 1491178 | 149118 | 149603 | 100,3 |
| 3. | Naxçıvan şəhəri | 4402123 | 440212 | 440852 | 100,1 |
| 4. | Culfa rayonu | 1258756 | 125876 | 126026 | 100,1 |
| 5. | Kəngərli rayonu | 892353 | 89235 | 89325 | 100,1 |
| 6. | Şərur rayonu | 2248556 | 224856 | 225035 | 100,1 |
| 7. | Sədərək rayonu | 300128 | 30013 | 30024 | 100,0 |
| 8. | Babək rayonu | 2300201 | 230020 | 230020 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 13000544 | 1299645 | 1208265 | 93,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26543823** | **2653973** | **2564463** | **96,6** |

## Naxçıvan Muxtar Respublikası üzrə 2 dekabr 2016-cı il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 4884,0 | 4654,0 | 230,0 |
| 2. | Babək rayonu | 7440,0 | 5190,0 | 2250,0 |
| 3. | Ordubad rayonu | 1517,0 | 712,0 | 805,0 |
| 4. | Culfa rayonu | 4700,0 | 3987,0 | 713,0 |
| 5. | Kəngərli rayonu | 3504,0 | 1842,0 | 1662,0 |
| 6. | Şahbuz rayonu | 1023,0 | 1006,0 | 17,0 |
| 7. | Sədərək rayonu | 1564,0 | 1198,0 | 366,0 |
| 8. | Naxçıvan şəhəri | 792,0 | 686,0 | 106,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25424,0** | **19275,0** | **6149,0** |

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 933